**Optik (GPON) və ADSL xidmətləri üzrə tariflərin dəyişdirilməsi üçün onlayn müraciət formasının doldurulması**

**TƏLİMATI**

- Aztelekom-dan Optik (GPON) və Telefon xidmətləri alan abonentlər "Mövcud tarifi dəyiş" bölməsinə müraciət zamanı internetin sürətini və yaxud hazırda aldığı sürət paketini dəyişə bilir.
- "Mövcud tarifi dəyiş" xanasına daxil olaraq ADSL xidmətindən fiber optik (GPON) xidmətinə keçid etmək mümkün deyil.
- Hazırda ADSL istifadəçisi olduğunuz halda Fiber optika (GPON) xidmətinə qoşulmaq üçün "Yeni xidmətə qoşul" xanasını seçməlisiniz.
- Aşağıdakı şəkildə göstərilən müvafiq xanalara hazırda Aztelekom tərəfindən Telefoniya, eləcə də İnternet+Telefoniya xidmətləri alan nömrəni qeyd edin.
- Sizinlə əlaqə saxlanılması üçün nömrələri və elektron poçt ünvanını müvafiq xanalara qeyd edin.
- Qeyd etdiyiniz nömrə aktiv və sizə məxsus olmalıdır. Çəkiliş barədə məlumat həmin nömrəyə təqdim olunacaq. Əlaqə saxlamaq mümkün olmadığı halda müraciət ləğv olunacaq.


Tarifini dəyişmək istədiyiniz ev telefonu nömrəsi *
+994 (00)-000-00-00
Mobil telefon *
+994 (00)-000-00-00
Email
Elektron poçt

- Tarifini dəyişmək istədiyiniz xidməti siyahıdan seçin. Xidmətlərin bölgüsü ADSL və Optika (GPON) prinsipinə əsasən qeyd olunub.
- ADSL xidmətində sürəti artırma xətt parametrlərinizə uyğun olaraq icra olunacaq.

Fiber optika (GPON) abonentləri tariflərini paket şəklində (Telefon+İnternet) və yaxud yalnız İnterneti seçərək yararlana bilər. Yalnız Telefoniya xidmətini seçmək mümkün deyil.




- Qeyd olunan xanalara şəxsiyyət vəsiqəsinin hər iki tərəfini və qoşulma ünvanında yerləşən mənzilin mülkiyyət sənədini yükləyin.




- Qoşulma şərtləri ilə tanış olun və sizi qane etdiyi halda təsdiq edin. Daha sonra isə “Mən robot deyiləm” bölməsinin təsdiq edərək müraciətinizi göndərin.

AZTELEKOM




- Formanı düzgün doldurduğunuz halda şəkildə əks olunan səhifə açılacaq.
- Müraciətiniz ərazidən asılı olaraq 3 iş günü ərzində icra olunacaq və cavab sizə SMS (zəng) vasitəsilə göndəriləcək.




AZTELEKOM